## Çin Xalq Respublikasının Pekin şəhərində "Geoməkan və statistik məlumatların inteqrasiyası" mövzusunda seminar keçirilib




Dövlət Statistika Komitəsinin Məlumatların yayılması şöbəsinin sektor müdiri Azər Əhmədov 2014-cü ilin 9-12 iyun tarixlərində BMT-nin Qlobal Geoməkan İnformasiyasının İdarəetmə Ofisi (UN GGIM) və Çin Xalq Respublikasının Coğrafi İnformasiya və Xəritəçəkmə üzrə Milli Administrasiyası (NASG) tərəfindən Çin Xalq Respublikasının Pekin şəhərində təşkil edilmiş "Geoməkan və statistik məlumatlarının inteqrasiyası" mövzusuna dair seminarda iştirak etmişdir.

Seminarda Azərbaycan, ABŞ, Avstraliya, Banqladeş, Belarus, Braziliya, BƏƏ, Çin Xalq Respublikası, Fici, Fransa, Misir, Qana, Hindistan, İndoneziya, İordaniya, Yaponiya, Kamboca, Keniya, Küveyt, Kape Verde, Laos, Meksika, Monqolustan, Moldova, Mərakeş, Nepal, Nigeriya, Oman, Panama, Filippin, Polşa, Səudiyyə Ərəbistanı, Seyşel adaları, Sinqapur, CAR, Şrilanka, Sudan, İsveç, Tailand, Tunis, Türkiyə və Yəməndən olan nümayəndələr iştirak etmişlər.

Seminarın əsas məqsədi ölkələrdə coğrafi informasiya, xəritəçəkmə üzrə təşkilatları və milli statistika qurumlarını bir araya gətirərək onların sıx, qarşılıqlı və faydalı əməkdaşlığına nail olunmasına, coğrafi və statistik məlumatların inteqrasiya edilərək vahid məlumat bazasının yaradılması və bu bazanın dövlət məmurları tərəfindən strateji planlaşdırma, regional inkişaf, qərarların qəbul edilməsi, əhalinin siyahıyaalınması, kənd təsərrüfatının siyahıyaalınması, digər müxtəlif seçmə müayinələrinin keçirilməsi üçün istifadə edilməsindən ibarət olmuşdur.

Seminar zamanı bu məsələ ilə bağlı ölkə təcrübələri müzakirə olunmuş və bir sıra dövlətlərdə coğrafi informasiyanı statistik məlumatlarla inteqrasiya edilməsi sahəsində əldə olunmuş nailiyyətlər haqqında məruzələr dinlənilmişdir.

Ümumilikdə, 4 gün davam edən tədbirin 3 günü ölkə təcrübələri ilə tanışlığa və müzakirələrə, sonuncu gün isə Çin Xalq Respublikasının Coğrafi İnformasiya və Xəritəçəkmə üzrə Milli Administrasiyasının (NASG) Peyk Müayinə və Xəritələşmə Təminatı Mərkəzinə texniki səfərin həyata keçirilməsi üçün ayrılmışdır.